**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

**Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Səfiri ATİB üzvü şirkətləri ziyarət etdi**

**No: 09/05/84**
**24.02.2009**

Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri Hulusi Kılıç, Səfirliyin Ticarət Müşaviri Qazi Bilgin, İqtisadiyyat Müşaviri Cahid Büyüktürk, Çalışma və Sosial Müdafiə Müşaviri Mustafa Gür ATİB üzvü şirkətləri ziyarət etdilər. ATİB İdarə Heyətinin sədr müavini Cemal Yangın və Baş katib Rəşad Rəsullu da ziyarətlərdə iştirak etmişlər.

Fatoğlu Istehsal Azərbaycan Ltd, NJT 2000 və TAİS İKF şirkətlərini ziyarət edən edən qonaqlar şirkətlərin fəaliyyəti ilə maraqlanmışlar.

Fatoğlu Istehsal Azərbaycan Ltd ölkənin ən iri un istehsalçılarından biridir. Eyni zamanda şirkət beynəlxalq ticarət ilə məşğuldur. NJT 2000 içməli və kanalizasiya su borusu və fitinqləri, təbii qaz, drenaj, dərin quyu və kabel borusu və fitinqləri, divar və tavanların üzlənməsində istifadə olunan plastik panel (lambri) və aksesuarlar istehsal edir. "Remservices" adı ilə fəaliyyət göstərən TAİS İKF şirkətinin missiyası həm Azərbaycanda, həm də beynəlxalq arenada fəaliyyət göstərən biznes və sənaye müəssisələrinin tələblərinə cavab verən yüksək keyfiyyətli xidmətlər təmin etməkdən ibarətdir.

Görüşlər zamanı qarşılıqlı fikir mübadiləsi aparılmış, iki ölkə arasındakı potensial əməkdaşlıq imkanları dəyərləndirilmişdir.

Qeyd edək ki, Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Səfirinin digər ATİB üzvü şirkətləri ziyarəti gözlənilir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**